# AMEA Mərkəzi Elmi Kitabxanasının 2005-cü ilin yekunları üzrə hesabatı

2005-ci ildə Mərkəzi Elmi Kitabxana plana əsasən 2 problemə daxil olan 8 mövzu üzrə 28 tədqiqat işi aparmışdır.

2005-ci ildə Kitabxanada "Kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinin elmi təşkili" probleminə daxil olan 7 mövzu üzrə 21 tədqiqat işi aparılmışdır.

-"AMEA ETM-də aparılan tədqiqatların təməyülünə müvafiq azərbaycan və xarici dillərdə fondların elmi ədəbiyyatla komplektləşdirilməsi" mövzusu üzrə 2 iş aparılmışdır.

1.Azərbaycan və rus dillərində elmi ədəbiyyatın komplektləşdirilməsi AMEA ETM-lərin təməyülünə müvafiq aparılmışdır ( "QASİD" firmasından, nəşriyyatlardan "məcburi nüsxə"lərin alınması, sat?s , beynəlxalq kitab mübadiləsi, ayrı-ayrı alimlərdən, mütəxəssislərdən, təşkilatlardan alınmış kitab hədiyyələri yolu)

2.Xarici dillərdə elmi ədəbiyyat beynəlxalq mübadilə yolu ilə alınmışdır (xarici ölkə partnyorları ilə işğüzar yazışmalar, pozulmuş əlaqələrin bərpası üzrə iş, müqavilələr yolu ilə).
Hazırda MEK dünyanın 61 dövlətind?n olan 622-yə yaxın təşkilat, tədqiqat muəssisələri, kitabxanalar, elmi idərələr, ali təhsil muəssisələri, görkəmli alim və mədəniyyət xadimləri ilə əlaqə saxlayaraq, ədəbiyyat və informasiya mübadiləsi aparır.
Hesabat ilində Kitabxanaya 30 214 nüsxə ədəbiyyat daxil olmuşdur, o cümlədən 2 796 nüsxə xarici dillərdə. Bunlardan 20 807 nüsxəsi kitabdır:19 900 nüsxəsi- Azərbaycan dilində, 855 nüsxəsi- rus dilində, 461 nüsxəsi- Qərbi Avropa və Şərq dillərindədir.
MEK-ə daxil olan dövri və nəşri davam edən ədəbiyyatın ümumi sayı 6 939 nüsxə olmuşdur ki, onların 1 704 nüsxəsi xarici dillərdədir.
-Hesabat ilində Kitabxana 1 428 nüsxə avtoreferat və 53 nüsxə dissertasiya qəbul etmişdir.
- BKM vasitəsilə 3 111 nüsxə ədəbiyyat alınmışdır və Şərq ölkələrinə 307 nüsxə, Qərbi Avropa ölkələrinə 720 nüsxə, MDB ölkələrinə 1 178 nüsxə ədəbiyyat göndərmişdir.

2005-ci ildə ədəbiyyatın elmi kataloqlaşdıpılması mövzusu üzrə 4 iş aparılmışdır.

1. Kitabxanaya daxil olan kitablar mövcud standartlar əsasında işlənmişdir. Azərbaycan, rus, Qərbi Avropa və Şərq dillərində əlifba kataloqlarına 5 693 kartoçka, düzülmüşdür. Əlifba kataloqlarının 15 100 kartoçkası elmi redaktə edilmişdir.
2. Azərbaycan, rus, Qərbi Avropa və Şərq dillərində daxil olan kitablar Kitabxana- biblioqrafiya təsnifatı əsasında elmi sistemləşdirilmişdir və 6 161 kartoçka sistemli kataloqlarda əks edilmişdir. Sistemli kataloqların elmi redaktəsi aparılmışdır- 49 165 kartoçka redaktə edilmişdir. Həmin kataloqlarda respublikada və dünyada baş verən mühüm hadisələrlə və aktual məsələlərlə bağlı yeni rubrikalar açılmışdır.
3. Cari ildə dövri və nəşri davam edən ədəbiyyatın kataloqlarında Kitabxanaya daxil olan 6 939 nüsxə Azərbaycan, rus , Qərbi Avropa və Şərq dillərində ədəbiyyat əks edilmişdir, bu kataloqların 7 600 kartoçkası redaktə edilmişdir.
4. Kitabxananın "Azərbaycanda elm və mədəniyyət" və "Azərbaycan xəricdə" biblioqrafik kartotekaların?n elmi təşkili məqsədilə dövri mətbuat və müxtəlif sənəd materiallarının tədqiqi, seçilib toplanması, elmi təsviri işləri davam etdirilmişdir. Kartotekaların elmi redaktəsi keçirilmişdir, 52 yeni rubrika açılmışdır, 14 200 kartoçka əlavə edilmişdir. 2005-ci ildə abonement, oxu zalları, kitabxanalararası abonement (KAA) vasitəsilə oxuculara xidmətin təşkili mövzusu üzrə 2 iş aparılmışdır.

-Hesabat ilində MEK və AMEA ETİ kitabxanalar şəbəkəsi üzrə oxucuların ümumi sayı 46 923 nəfər, davamiyyət 1 754 242, kitab verilişi 2 382.516 nüsxə ədəbiyyat, fondların ümumi həcmi 3 530 805 nüsxə olmuşdur.

- Hesabat ilində MEK-də oxucuların ümumi sayı 34 768 nəfər olmuşdur, 516 yeni oxucu qeydə alınmışdır, davamiyyət 1 210 050, kitab verilişi 1 248 994 nüsxə ədəbiyyat olmuşdur, fondların ümumi həcmi 2 135 969 nüsxəyə çatmışdır.

- Oxucuların sifarişləri ilə Kitabxanalararası abonement vasitəsilə respublikanın başqa kitabxanalarından 975 nüsxə ədəbiyyat alınmış, həmin kitabxanalar üçün 720 sifariş yerinə yetirilmişdir.

2005-ci ildə Kitabxananın planına əsasən "Elmi-kütləvi tədbirlərin təşkili və keçirilməsi" movzusu üzrə 2 iş yerinə yetirilmişdir.

1. MEK-də və onun Şəbəkə kitabxanalarında respublikanın tarixi hadisələrinə, əlamətdar günlərinə həsr olunmuş, aktual elmi mövzularda, görkəmli dövlət, elm və mədəniyyət xadimlərinin, yazıçı və şairlərin yubileylərinə həsr olunmuş və konfrans, seminar və b. tədbirlərlə bağlı 161 və 12 yeni daxil olan ədəbiyyat sərgiləri təşkil edilmişdir:

-mövzu sərgilərindən - "Gender və qadın problemləri", "Azərbaycan dili və dövlətçilik", "İnsan ekologiyasının problemləri", "Azərbaycan klassikləri", "Beynəlxalq terror", "Qafkaz xalqları" və b.,

-yubiley sərgilərindən- "Cavad Heyət - 80", "Bəkir Nəbiyev - 75", "Y. Məmmədəliyev - 100", "Hüseyn Cavid- 123" və başqalarını göstərmək olar;

-tədbirlərlə bağlı sərgilər:

-2005-ci il aprel ayında Rusiyadan daxil olan elmi dövri və nəşri davam edən ədəbiyyatın sərgisini AMEA-da keçirilmişdir, 1143 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir.

- 2005-ci ilin aprel ayında AMEA Rəyasət Heyətində "Azərbaycan alimlərinin sosial- iqtisadi inkişafda rolu" mövzusunda keçirilmiş konfransla bağlı sərgidə 400-ə yaxın ədəbiyyat nümayiş etdirilmişdir.

- Cari ilin may ayında "1941-1945-ci illər müharibəsində Qələbənin 60 illik yubileyi" ilə əlaqədar Rəyasət Heyətində keçirilmiş konfransla bağlı müharibə dövrünə dair müxtəlif illərdə, o sıradan müharibə illərində çap olunmuş 300 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir.

Hesabat ilində AMEA ETM-lərində 10 səyyar ədəbiyyat sərgisi keçirilmişdir. Sərgilərdə 1000-ə qədər Azərbaycan, rus və Qərbi Avropa dillərində ədəbiyyat nümayiş etdirilmişdir.

2005-ci ildə ədəbiyyat sərgilərinin təşkili sahəsində Kitabxananın ən uğurlu nəticəsi AMEA-nın 60 illik yubileyinə həsr olunmuş "Azərbaycan elminin inkişafına doğru" adı altında oktyabr ayında keçirilən silsilə sərgilər olmuşdur.
Burada AMEA alimlərinin müstəqillik dövründə əldə etdiyi nailiyyətlərinin nəticəsi olan çap məhsulları nümayiş etdirilmişdir.
Respublikada böyük rezonans doğuran Ekologiya və Təbii Sərvətlər, Vergilər, Rabitə və İnformasiya Texnologiyaları, Təhsil, Xarici İşlər, Nəqliyyat Nazirlikl?rində keciril?n möhtəşəm sərgilərdə 2000-ə yaxın ədəbiyyat nümayiş olunmuşdur..

Bütövlükdə, 2005-ci ildə təşkil edilmiş sərgilərdə cəmi 7 200 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir.

-İl ərzində 12 yeni daxil olan ədəbiyyat sərgisi təşkil edilmişdir, 4517 nüsxə ədəbiyyat nümayiş etdirilmişdir.

2005-ci ildə MEK "Elmi fondların tədqiqi, istifadəsinin və mühafizəsinin təşkili və konservasiyası" mövzusu üzrə 2 iş aparılmışdır.

1. Qərbi Avropa dillərində dövri nəşrlərin oxucular tərəfindən istifadəsinin səmərəliliyi üzrə tədqiqat işi aparılmışdır. Tədqiqatın gedişində qiymətli nəşrlər fonduna 500 nüsxə ədəbiyyat, depozitar fonduna 1 500 nüsxə ədəbiyyat ayrılmışdır;
-Kitabxananın əsas fondunun ayrı-ayrı hissələrində aparılmış tədqiqat nəticəsində bərpa işləri gorulmusdur.

2. Kitabxananın elmi fondlarından oxuculara ədəbiyyatın verilməsi həyata keçirilmişdir.

Hesabat ilində "Kitabxanaşünaslığın nəzəri və təcrübi məsələlərinin tədqiqi və nəşri" mövzusu üzrə 3 iş aparılmışdır.

1. Mərkəzi Elmi Kitabxananın "Elmi əsərləri"nin (məqalələr toplusu) 6-cı buraxılışı hazırlanmış və nəşr edilmişdir. MEK-in 80 illik yubileyi münasibətilə hazırlanmış xüsusi buraxılışa Kitabxananın və ayrı-ayrı şöbələrin tarixi, təşəkkülü, nailiyyətləri və inkişaf perspektivləri ilə bağlı məqalələr daxil edilmişdir.

2. Kitabxanaçılıq-informasiya terminlərinin izahlı lüğətinin sözlüyü hazırlanmışdır. Lüğətdə 2800 söz və termininin izahı öz əksini tapmışdır.
3. "AMEA Mərkəzi Elmi Kitabxanasının və kitabxana şəbəkəsinin əsas iş proseslərinin normaları" kitabının 2-ci nəşri başa çatdırılmışdır.
Hesabat ilində "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması" mövzusu üzrə 6 iş aparılmışdır.
1. "Azərbaycanşünaslıq" elektron informasiya mərkəzinin məlumat bazaları hazırlanmışdır:
- "Azərbaycannın tarixi" müstəqillik dövrü məlumat bazasına- 243 sənəd daxil edilmişdir
- "Azərbaycanın iqtisadiyyatı" müstəqillik dövrü məlumat bazasına - 363 sənəd daxil edilmişdir;
- "Azərbaycanın elmi" müstəqillik dövrü məlumat bazasına- 387 sənəd daxil edilmişdir.
- "Azərbaycanın mədəniyyəti" müstəqillik dövrü məlumat bazasına - 224 sənəd daxil edilmişdir.

Azərbaycan dilində elmi ədəbiyyatın elektron kataloqunun yaranması üzrə iş davam edilmişdir.
-Hesabat ilində elektron kataloqa 855 adda yeni ədəbiyyat daxil edilmişdir.
- Azərbaycan dilində ədəbiyyatın retrokonversiyası davam etdirilmişdir, 745 adda ədəbiyyat elektron kataloqa daxil edilmisdir.
3. "Yeni nəşrlərin elektron kitabxanasının yaradılması" məqsədilə nəşriyyatlardan yeni nəşrlərin CD-lərin toplanmışdır və elektron kitabxananın formalaşdırılması sahəsində iş davam etdirilmişdir.
4. "Azərbaycanda neft" elektron biblioqrafik göstəricisinin məlumat bazasının yaradılması (materialın toplanması, elmi işlənməsi, məlumat bazaya daxil edilməsi) üzrə iş davam etmişdir. 2005-ci ildə Azərbaycanda neft sənayesinin tarixini, müasir vəziyyətini və perspektivlərini əhatə edən elektron kataloqa müxtəlif dillərdə 1 143 adda sənəd daxil edilmişdir, bunlardan 120-si tammətnli sənəddir.
5. "Azərbaycan Milli Elmlər Akademiyasının alimləri.1-ci hissə. Humanitar və ictimai elmlər" elektron biblioqrafik göstəricisi üçün materialın toplanması davam etmişdir. Cari ildə 52 alim haqqında məlumat göstəriciyə əlavə edilmişdir.
6. Mərkəzi Elmi Kitabxananın Veb-səhifəsinin təkmilləşdirilməsi üzrə iş aparılmışdır: yeni informasiya, rubrikalar və b. daxil edilmişdir.

2005-ci ildə Mərkəzi Elmi Kitabxananın elmi-tədqiqat işlərinin planının - "Biblioqrafiyaşünaslıq: elmin biblioqrafik informasiya təminatı" probleminə daxil olan "Uçot-qeyd, mövzu, şəxsi və cari biblioqrafik göstəricilərin tərtibi" mövzusu üzrə 7 elmi-tədqiqat işi aparılmışdır.
1. "Azərbaycan Milli Elmlər Akademiyasının nəşrlərinin biblioqrafiyası. İllik.1984" biblioqrafik göstərici çap edilmişdir.
2. "Azərbaycan folklorçuları" biblioqrafik göstəricisi üzrə material toplanmış və qruplaşdırılmışdır. "Folklorşünaslığın tarixi", "Folklor nəzəriyyəsi", folklora dair keçirilən qurultay, konfrans, müşavirələr, aşıq yaradıcılığı bölmələri üçün 2 200 adda toplanmış materialların elmi təsviri və redaktəsi icra olunmuşdur.

3. "Azərbaycan dünya mətbuatında" biblioqrafik göstəricisinin tərtibi üçün toplanmış materialın elmi təsviri və redaktəsi işləri başa çatdırılmışdır.

4. "Qafqaz regionu və qonşu ölkələrin tarixi. XVIII-XX əsrlər" annotasiyalı biblioqrafik göstəricisinin tərtibi ilə bağlı nadir və qiymətli nəşrlər fondunun rus mənbələrinin tədqiqi əsasında Azərbaycan və ümumiyyətlə Qafqaz xalqlarının tarixi, mədəniyyəti ilə bağlı materillarırn elmi-analitik təhlili aparılmışdır və 2 750 kartoçka tərtib edilmişdir. İş davam edir.

5. "Azərbaycanda müdafiə olunmuş dissertasiyaların biblioqrafik göstəricisi (1976-2004). Humanitar və ictimai elmlər" kitabının tərtibi üsün iri həcmdə material toplanmışdır, elmi təsviri, qruplaşdırılması, redaktəsi aparılmışdır, kitab nəşrə hazırlanmışdır.

6. "Azərbaycanın elm və mədəniyyət xadimləri" seriyasından şəxsi biblioqrafik göstəricilərin hazırlanmısı üzrə iş aparılmışdır.

-Akademik İsa Həbibbəylinin,
-akademik Maqsud Əliyevin,
-müxbir üzv Arif Abbasovun
əsərlərinin biblioqrafik göstəriciləri çap edilmişdir.

-Akademik Asəf Nadirovun,
-akademik - Teymur Bünyadovun,
-müxbir üzv - Məşədxanım Nemətovanın,
-xalq şairi Xəlil Rza Ulutürkün
əsərlərinin biblioqrafik göstəriciləri tərtib edilib çapa verilmişdir.

-Akademik Aslan Aslanovun,
-müxbir üzv Şahbaz Muradovun,
-müxbir üzv Vasim Məmmədəliyevin
əsərlərinin biblioqrafik göstəriciləri başa çatdırılmışdır.

Akademiklər - Akif Cəfər oğlu Haciyevin, Arif Şəfahət oğlu Mehdiyevin,
müxbir üzv - Ayaz Adil oğlu Əfəndiyevin
əsərlərinin biblioqrafik göstəriciləri üzrə iş materialın toplanması, elmi işlənməsi və çapa hazırlanması mərhələsindədir.

7. Hesabat ilində Mərkəzi Elmi Kitabxanada cari ədəbiyyatın çap kataloqlarını nəşr edilmişdir:

- "Mərkəzi Elmi Kitabxanaya 2005-ci ildə yeni daxil olan kitablar". Kataloq. 1-ci və 2-3-cü buraxılışlar.
- "Mərkəzi Elmi Kitabxanaya 2005-ci ildə daxil olan dövri və nəşri davam edən ədəbiyyat" Kataloq. 1-ci və 2-ci buraxılışlar.
- "Bakı kitabxanalarına Şərq və Qərbi Avropa dillərində daxil olan yeni kitablar" kataloqu başa çatdırılmışdır.

Plandan əlavə görülən işlər

- "Əliyeva G.T. Azərbaycan füzulişünaslığın təşəkkülü" kitabı çap edilmişdir.
-Azərbaycan Milli Elmlər Akademiyasının 60 illiyi münasibətilə "Mərkəzi Elmi Kitabxana" adlı buklet çapdan çıxmışdır.
-"Hüseyn Cavid: həyat və yaradıcılığı. Biblioqrafik göstərici" MEK və Hüseyn Cavidin ev muzeyi ilə müştərək hazırlanmış kitab çapdan çıxmışdır. Redaktorlar: A.İ.Əliyeva-Kəngərli və G.İ.Babaxanlı.
- Teymur Əkbər oğlu Əhmədovun həyat və yaradıcılığlarını əks etdirən şəxsi biblioqrafik göstəricilər hazırlanıb başa çatdırılmışdır.
- "AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşlarının çap işləri" II bur. adlı biblioqrafik göstərici üzərində tədqiqat işi aparılmışdır.

2. Nəşriyyat fəaliyyəti

Hesabat ilində Mərkəzi Elmi Kitabxana 108,8 ç.v. həcmində 11 kitab nəşr etmişdir, respublika mətbuatında kitabxananın əməkdaşlarının 60-dan çox məqaləsi çap olunmuşdur. İki məqalə Ukrayna və Rusiyada çap olunmuşdur.
Kitablar:
1. Əliyeva G.T. Azərbaycan füzulişünaslığın təşəkkülü. - B.: Çaşıoğlu, 2005. - 190s. - 11,9 - ç.v.
2.Elmi əsərlər. Kitabxanaşünaslıq, kitabşünaslıq, ədəbiyyatşünaslıq. V1 bur. Mərkəzi Elmi Kitabxana - B.: MEK, 2005. - 150 s. - 9,4 ç.v.
Azərbaycan MEA nəsrlərinin biblioqrafiyası. İllik. 1984. - B.: 2005. - 303 s. - 19 ç.v.
Hüseyn Cavid: həyat və yaradıcılığı. Biblioqrafik göstərici". - B.:Elm, 2005. - 260 s. - 16,2 ç.v.
İsa Əkbər oğlu Həbibbəyli: Biblioqrafik göstərici. - B.: MEK, 2004. - 119 s. - 7,5 ç.v.
Maqsud İsfəndiyar oğlu Əliyev: Biblioqrafik göstərici. - B.: MEK, 2004. -144 s. - 9,7 ç.v.
Arif Akim oğlu Abbasov: Biblioqrafik göstərici. - B.: 2005. - 87 s. - 2,75 ç.v.
Teymur Əkbər oğlu Əhmədov: Biblioqrafik göstərici. - B.,2005. - 184 s. - 11,5 ç.v.
Mərkəzi Elmi Kitabxanaya daxil olan dövri və nəşri davam edən ədədbiyyat: Biblioqrafik göstərici.

2004. - B.-2005. - 70 s. - 5 ç.v.
Mərkəzi Elmi Kitabxanaya 2005-ci ildə daxil olan dövri və nəşri davam edən ədədbiyyat: Biblioqrafik göstərici. I bur. - B., 2005. - 63 s. - 4 ç.v.
Mərkəzi Elmi Kitabxanaya 2004-ci ildə yeni daxil olan kitablar: Biblioqrafik göstərici. 4 bur. - B.: 2005. - 71 s. - 4,2 ç.v.

Kadr hazırlığı

Hal-hazırda Mərkəzi Elmi Kitabxanada 11 şöbə fəaliyyət göstərir. Həmin şöbələrdə 138 mütəxəssis çalışır, onlardan 3 nəfəri - elmlər doktoru, 14 nəfəri- elmlər namizədidir, 36 əməkdaş elmi-tədqiqat işi üzərində çalışır.

MEK-in bir əməkdaşı Gülşən Teymur qızı Əliyeva AR prezidenti yanında Ali Attestasiya Komissiyasının 15 noyabr 2005-ci il tarixli iclasının qərarı ilə dosent elmi adı almışdır.

2005-ci ildə AMEA-nın Rəyasət Heyəti tərəfindən "AMEA Mərkəzi Elmi Kitabxanasında aspiranturanın açılması haqqında" 02 mart 2005-ci il tarixli 910 №-li Qərar qəbul edilmişdir v? MEK yüksək ixtisaslı elmi kadrların hazırlanmasını aspirantura yolu ilə həyata keçirməyə muvəffəq olmuşdur.
Cari ildə aspiranturaya qəbul olmaq üçün Kitabxanaya "Kitabxanaşünaslıq" ixtisası üzrə 2 yer ayrılmışdır, 3 ərizə daxil olmuşdur. Onlardan 2 nəfəri imtahanları müvəffəqiyyətlə verərək, aspiranturaya daxil olmuşdur.

Kitabxana AMEA Mərkəzi Elmi Kitabxanası və Elmi-tədqiqat müəssisələri kitabxana şəbəkəsinin Avtomatlaşdırılmış İnteqrasiyalı Kitabxana Sisteminin yaradılması proqramı hazırlaması təşəbbüsü ilə çıxış edərək, 2004-cü ildə İRBİS-64 Kitabxanaların Avtomatlaşdırılması Sistemini əldə etmişdir və həmin sistemin nəzəri və təcrübi məsələləri ilə bağlı Kitabxanada cari ildə təlim kursları keçirmişdi və s.

Kitabxananın 2 əməkdaşı Fransanın Azərbaycandakı səfirliyi tərəfindən təşkil olunmuş fransız dili kurslarında təhsil alır.

MEK- Bakı Dövlət Universitetinin tələbələrinin istehsalat təcrübəsi bazasıdır. Hesabat ilində BDU-nun Kitabxana-informasiya fakültəsinin 100-ə yaxın tələbələri kitabxanamızda istehsalat təcrübəsi keçmişdir.

4. Elmi-təşkilatı fəaliyyət

Hesabat ilində Kitabxananın Elmi Şurasının 10 iclası keçirilmişdir.
İclaslarda elmi, elmi-təşkilatı və kadr məsələləri, AMEA-nın Rəyasət Heyətinin qərar və sərəncamları, nəşriyyat fəaliyyəti, aspiranturaya qəbul haqqıdna və s. məsələlər müzakirə edilmişdir, elmi məruzələr dinlənilmişdir, konfrans və seminarların keçirilməsi haqqıdna qərarlar qəbul edilmişdir.

Bundan başqa:
-MEK-in və onun şöbələrinin elmi və elmi-təşkilatı fəaliyyətinin ynkunlarının müzakirələri keçirilmişdir,
- əldə edilmiş mühüm elmi nəticələr təsdiq edilmişdir,
- elmi tədqiqatların həyata keçirilməsi və inkişafı məsələləri və
- MEK-in fəaliyyətini təkmilləşdirilmək məqsədilə verilən konkret təkliflər haqqında qərarlar qəbul edilmişdir.
- Elmi konfrans və seminarlarda iştirak edənlərin hesabatları müzakirə olunaraq təsdiq edilmişdir.

2005-ci ildə kitabxana işi sahəsində aktual nəzəri və təcrübi məsələlərə aid aparılan elmi-tədqiqat işlərinin yekunları müzakirə edilmişdir.

Kitabxana fondlarının mühafizəsi və konservasiyası, kitabxana işinin avtomatlaşdırılması, tədris mərkəzinin yaradılması ilə bağlı 7-dən artıq layihə hazırlanmışdır, bunlardan 5-i donor təşkilatlarına təqdim edilmişdir.

İranın Azərbaycandakı səfirliyi və AMEA Mərkəzi Elmi Kitabxanasının əməkdaşlığı çərçivəsində İran zalının yaradılması ilə bağlı layihəsi həyata keçirilmişdir.

Almaniya Xarici İşlər Nazirliyinin dəstəyi ilə keçirilən "Kitab və İnsanlar" adlı layihədə MEK iştirak etmək üçün Almaniya səfirliyinə müvafiq sənədlər hazırlanıb göndərilmişdir.

2005-ci ildə MEK Akademiyanın 27 Elmi-Tədqiqat İnstitutu Kitabxanala-rına metodik rəhbərlik etmişdir.

5. Elmi konfranslar, seminarlar

2005-ci ilin may ayının 20-də AMEA MEK-də "Elmin informasiya təminatı: inkişaf perspektivləri" mövzusunda 2-ci elmi-praktiki konfrans keçirilmişdir.

2005-ci ilin may ayının 26-da MEK və Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, AMEA-nın İnformasiya Texnologiyaları İnstitutu, Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsi ilə birlikdə "İnformasiya cəmiyyəti və kitabxanaların vəzifələri" mövzusunda ümumrespublika elmi-praktiki seminar keçirilmişdir.

21-23 sentyabr 2005-ci il tarixində Moskvada "Beynəlxalq elmi və mədəni əlaqələrin inkişafında kitab nəşrinin rolu" mövzusunda beynəlxalq elmi konfrans keçirilmişdir. Konfransda AMEA MEK-in direktoru, f.e.n. A.İ. Əliyeva-Kəngərli və elmi işlər üzrə direktor müavini F.İ. Hüseynova iştirak etmişlər. A.İ. Əliyeva-Kəngərli "AMEA MEK-da beynəlxalq kitab mübadiləsinin inkişafı məsələləri" mövzusunda məruzə ilə çıxış etmişdir.

- Mərkəzi Elmi Kitabxana tərəfindən hələ 2004-cü ildə əldə edilmiş İRBİS-64 kitabxana proseslərinin avtomatlaşdırılması sisteminin "Web-Çitatelğ" (Z 39.50 komponenti ilə) modulun əldə edilməsi üçün Elektron kitabxanalar və yeni informasiya texnologiyalarının hazırlanması və istifadəçiləri Beynəlxalq Assosiasiyası (Assoüiaüiə GBNİT) ilə müqavilə bağlanmışdır.

Informasiya C?miyy?ti uzr? Umumdunya Sammiti, Birl?smis Mill?tl?r T?skilat? v? Beyn?lxalq Telekommunikasiya Ittifaq? t?r?find?n t?skil edilmis muhum t?dbir idi. BMT-nin 50 muxt?lif strukturundan numay?nd?l?r, yuzl?rl? qeyri-hokum?t t?skilat?ndan, dunyan?n ?n boyuk sirk?tl?rind?n v? tan?nm?s media orqanlar?ndan 11 mind?n cox numay?nd? istirak etmisdi. Respublikam?z da bu t?dbird? oz aktivliyini numayis etdirdi. Rabit? v? Informasiya Texnologiyalar? naziri ?li Abbasovun r?hb?rliyi alt?nda dovl?t sektoru, beyn?lxalq t?skilatlar, oz?l sektor, qeyri-hokum?t t?skilatlar? v? KIV-d?n olan 67 n?f?rd?n ibar?t numay?nd? hey?ti Az?rbaycan?m?z? bu t?dbird? t?msil etdi. 2005-ci il noyab?r?n 16-19 -d?k Tunisd? keciril?n "Informasiya C?miyy?tinin Umumdunya Zirv? Toplant?s?da" MEK-n?n numay?nd?si d? istirak etmisdir.

2005-ci ilin dekabr ayının 2-də AMEA Mərkəzi Elmi Kitabxanasında "80 il elmin xidmətində" - AMEA Mərkəzi Elmi Kitabxanasının 80 illiyinə həsr olunmuş elmi-praktiki konfrans keçirilmişdir.

6.Problemlər. Nöqsanlar.

1. Xalqımızın milli-mədəni sərvəti olan kitabların mühafizəsi problemləri Mərkəzi Elmi Kitabxana üçün hal-hazırda mühüm əhəmiyyət kəsb edən məsələlərdən biridir. Acınacaqlı haldır ki, MEK-ın zəngin, nadir elmi ədəbiyyat fondları yararsız şəraitdə saxlanmağa məhkum olunmuşdur.
Rütubət, havasızlıq, biokimy?vi mühafizənin təmin olunmaması, antisanitariya, ventilyasiya, istilik boruların?n sıradan çıxması, su, elektrik xətlərində tez-tez baş verən qəza hadisələri və s. Kitabxana üçün yeni binanın tikilməsi məsələsini bütün aktuallığı ilə qarşıya qoyur.

2. Oxucu tələbatının ödəmək, beynəlxalq kitab və informasmiya mübadiləsini genişləndirmək, Azərbaycan elminin nailiyyətlərini dünya miqyasında təblig etmək üçün AMEA ETİ-nin nəşrləri və ümumiyyətlə "Elm" Redaksiya Nəşriyyat Poliqrafiya Mərkəzinin çap məhsullarının Kitabxanaya müntəzəm olaraq daxil olmaması.

3. Xarici ölkələrdə nəşr edilən yeni ədəbiyyatın, dərc olunan jurnal və qəzetlərin vaxtında alınması üçün kitabxanaya valyutanın ayrılmaması.

4. AMEA ETM-lərin bəzi əməkdaşları tərəfindən Kitabxanadan istifadə qaydalarına riayət etməməsi və

müvvəqqəti alınan ədəbiyyatın vaxtında qaytarılmaması.

5. İnteqrasiyalı Avtomatlaşdırılmış Kitabxana Sisteminin yaradılması üçün müvafiq texniki vasitələrin çatışmazlığı.

7. Mühüm nəticələr

"Əliyeva G.T. Azərbaycan füzulişünaslığın təşəkkülü" kitabı çap edilmişdir.

Filologiya elmləri namizədi, dosent Gülşən Əliyevanın monoqrafiyasında füzulişünaslığın təşəkkülünün üc mərhələsi nəzərdən keçirilir: Azərbaycan füzülişünaslığın mənşəyi, təşəkkül ərəfəsi və təşəkkülü. Əsərdə ilk dəfə füzülişünaslığın banisi kimi məhz dahi şair M.Füzuli özü, onun poetik və nəzəri irsi tədqiqat predmetinə çevrilir.

Azərbaycan - İran elmi-mədəni əlaqələr zalının açılışı

Respublikamızda fəaliyyət göstərən xarici səfirlikləri ilə sıx əməkdaşlıq nəticəsində Kitabxanada bir sıra işlər görülmüşdür. 2005-ci ildə İranın ölkəmizdəki səfirliyi tərəfindən kitabxanamızda "Azərbaycan - İran elmi-mədəni əlaqələr" zalı açılmışdır. Həmin zalı açmaqda məqsəd iki ölkə alimlərinin və ziyalılarının elmi-mədəni əlaqələrinin daha da inkişaf etdirmək, ölkələrimizi daha yaxından tanımaqdır.

"Neft ədəbiyyatının elektron kitabxanası"nın hazırlanması.

Azərbaycanda ilk dəfə olaraq "Neft ədəbiyyatının elektron kitabxanası" hazırlanmışdır.

"Azərbaycanda neft" məlumat bazasına daxil olan Azərbaycan neft sənayesinin tarixi, müasir vəziyyəti və perspektivlərini əks edən bölmələrinə 1143 adda sənəd (kitab, dövri mətbuat və s.) daxil edilmişdir ki, bunlardan 547-si tammətnli sənəddir.
Neft ədəbiyyatının elektron informasiya daşıyıcılarına köçürərək, yaradılan məlumat bazasının tam balansının internet şəbəkəsində yerləşdirməklə respublika daxilində və onun hüdudlarından kənarda məqsədyönlü təbliğat aparmaq, ziyalı və başqa kateqoriyadan olan oxucu kütləsini neft ədəbiyyatı ilə yaxından və daha operativ şəkildə tanış etmək məqsədilə həyata keçirilmişdir.
Artıq 2005-ci ildə "Azərbaycanda neft" məlumat bazasından oxucuların istifadə edilməsi qeydə alınmışdır.